# Ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr



**Ölkəmizdə son illər su təsərrüfatı sahəsində reallaşdırılan layihələr həyata keçirilən uğurlu sosial siyasətin prioritet istiqaməti kimi getdikcə daha çox aktuallıq kəsb edir. Təsadüfi deyil ki, insan həyatı üçün əvəzedilməz sərvət olan içməli suyun əhəmiyyətindən bəhs edən "Su həyat mənbəyidir, təmiz su isə sağlam həyat deməkdir" sözləri də insan amilinə verilən önəmin təcəssümüdür. Təbiətin bəxş etdiyi əvəzsiz nemətlərdən sayılan sudan səmərəli istifadə su ehtiyatlarına malik Azərbaycanda tarixin bütün dövrlərində aktual olub.**

Ulu öndər Heydər Əliyev 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə meliorasiya və su təsərrüfatının inkişafını da xüsusi diqqət mərkəzində saxlayırdı. Ölkəmizdə meliorasiya və irriqasiyanın inkişafı, bu sahədə aparılan islahatlar, böyük quruculuq işləri, geniş meliorasiya potensialının yaradılması və perspektiv proqramların qəbul edilməsi ümummilli lider Heydər Əliyevin yorulmaz fəaliyyətinin bəhrəsi olub. Ulu öndər respublikada kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının meliorasiya və su təsərrüfatı sahəsini inkişaf etdirmədən mümkün olmadığını böyük uzaqgörənliklə qeyd edirdi. "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik", -deyən ümummilli liderin tapşırıq və göstərişləri əsasında bu sahədə mühüm işlər görüldü, əhəmiyyətli uğurlara nail olundu. Bütövlükdə, 1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə meliorasiya və su təsərrüfatında böyük quruculuq işləri aparılıb, güclü istehsal bazasına, tikinti və istismar təşkilatlarına, elmi-tədqiqat və layihə-axtarış institutlarına malik ixtisaslaşmış meliorasiya və su təsərrüfatı sahəsi, su axımını bölüşdürən və tənzimləyən suvarma sistemləri, kollektor-drenaj şəbəkələri, nasos stansiyaları və su anbarından ibarət tutarlı meliorasiya və su təsərrüfatı kompleksi yaradılmışdır ki, bu da öz effektini və səmərəsini vermişdir. 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilən Heydər Əliyev heç bir ay keçməmiş Mərkəzi Komitənin avqust plenumunu keçirdi, iqtisadiyyatı bərbad vəziyyətdə olan respublikanı dirçəltmək üçün qarşıda duran vəzifələri müəyyənləşdirdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtdan Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, xalq təsərrüfatının bütün sahələrində xüsusi canlanma başlandı. Meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının inkişafında mühüm rolu olmasını ilk gündən böyük uzaqgörənliklə müəyyən edən dahi rəhbər Heydər Əliyev bu sahəyə əsaslı vəsait qoyulmasını İttifaq hökuməti qarşısında bir vəzifə kimi müəyyən etmişdir. Kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul olundu. Bunlardan "Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" (1970-ci il), "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" (1975-ci il), "1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" (1976-cı il) və "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979-cu il) qərarları xüsusi əhəmiyyət kəsb edirdi. Məhz bu qərarlar sayəsində Azərbaycanda kənd təsərrüfatı istehsalının yüksəldilməsi və ixtisaslaşdırılması əsasında gələcək üçün respublika iqtisadiyyatının dinamik inkişaf proqramları qəbul olundu.

Ulu öndər Heydər Əliyev İttifaq rəhbərliyində olarkən də meliorasiya və su təsərrüfatı sahəsinə öz qayğısını əsirgəmir, bu sahədə işlərin gedişinə daim nəzarət edirdi. Müstəqillik dövrünün ilk illərində ölkədə bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də böhranlı vəziyyət hökm sürürdü. Böyük zəhmət və külli miqdarda vəsait hesabına yaradılmış qurğular, suvarma sistemləri qəza halına düşmüşdü, sahənin fəaliyyətinə və inkişafına ayrılan sərmayənin həcmi heçə endirilmişdi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli istəyi ilə hakimiyyətə gəlməsindən sonra Azərbaycan bütün sahələrdə olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsi də öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağıdılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Hər il meliorasiya su təsərrüfatı sistemlərinin istismarına müəyyən miqdarda vəsait ayrılaraq təmizləmə işləri həyata keçirildi və bu vəsaitin həcmi ilbəil artırıldı. Aqrar sahədə aparılan islahatlarla paralel olaraq meliorasiya və su təsərrüfatında da islahatların aparılmasına başlanıldı. İlk növbədə islahatların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ-hüquqi sənəd hazırlandı. 1996-cı ildə "Meliorasiya və İrriqasiya haqqında", 1997-ci ildə "Azərbaycan Respublikasının Su Məcəlləsi", 2003-cü ildə "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" qanunlar qəbul edildi.

Möhtərəm Prezidentimiz İlham Əliyev meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatında, regionların sosial-iqtisadi inkişafında, ölkə əhalisinin ekoloji cəhətdən təmiz və dayanıqlı ərzaq məhsulları ilə etibarlı təminatındakı rolunu nəzərə alaraq, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq müstəqil Azərbaycanda 1996-cı ildə ulu öndərimiz Heydər Əliyev tərəfindən "Meliorasiya və İrriqasiya haqqında" Qanunun imzalandığı 5 iyun tarixinin "Meliorator Günü" peşə bayramının təsis edilməsi barədə 24 may 2007-ci il tarixli Sərəncam imzalamışdır. Ölkə başçısı su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə yüksək hörmət əlaməti olaraq onun miqyasını daha da genişləndirərək 5 iyun gününün "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı kimi qeyd olunması barədə 14 may 2014-cü il tarixli yeni Sərəncam imzalamışdır. Bu Sərəncamın imzalanması su təsərrüfatı və meliorasiya işçiləri tərəfindən böyük sevinc və minnətdarlıqla qarşılanmış, onları öz çətin və şərəfli işlərinə daha da həvəsləndirmişdir.

Ulu öndər keçmiş ittifaq rəhbərliyində olduğu illərdə də respublika iqtisadiyyatının, o cümlədən meliorasiya və su təsərrüfatının inkişafını daim diqqət mərkəzində saxlayırdı. Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, sonradan kənd təsərrüfatında, xüsusi ilə də meliorasiya və su təsərrüfatında durğunluq yaranmış, sahə dağılaraq məhv olmaq təhlükəsi ilə üzləşmişdi.

Xalqın tələbi ilə 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən ali hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Mövcud meliorasiya potensialından səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə ölkədə meliorasiya və su təsərrüfatının inkişafında ulu öndər Heydər Əliyevin böyük və tarixi xidmətləri olduğunu vurğulayaraq qeyd edib ki, bu siyasət indi onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Bunun nəticəsi olaraq mövcud meliorasiya və irriqasiya obyektlərinin istismarı xeyli yaxşılaşıb, sahənin maddi-texniki bazası gücləndirilib.

"Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik", - deyən ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə meliorasiya və su təsərrüfatı sahəsi böyük inkişaf yolu keçmiş, Azərbaycanda böyük su anbarları, hidroqovşaqlar, nasos stansiyaları tikilib istifadəyə verilmiş, suvarılan torpaqların sahəsi xeyli artmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə su təsərrüfatı və meliorasiya sahəsinin inkişafına xüsusi diqqət yetirir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm Dövlət proqramları təsdiq olunmuş, kənd təsərrüfatının inkişafı, meliorativ tədbirlərin genişləndirilməsinə diqqət artırılmışdır. Prezident cənab İlham Əliyev demişdir: "Hər bir ölkədə ərzaq təhlükəsizliyini təmin etmək üçün ilk növbədə kənd təsərrüfatı inkişaf etdirilməlidir. Aydın məsələdir ki, kənd təsərrüfatının inkişafı da müasir meliorasiya və irriqasiya sistemləri olmadan mümkün deyil".

Mənim də ömrümün bir hissəsi su təsərrüfatı ilə bağlıdır. Belə ki, 1976-cı ildə Azərbaycan Respublikası Meliorasiya və Su Qurğuları İdarəsinin Tərtər rayonundakı 15 saylı TQİ-də iş icraçısı vəzifəsinə qəbul edilmiş, 1977-ci ilin avqust ayında nazirliyin göndərişinə əsasən Bərdə rayonundakı 17 nömrəli SMD-nə iş icraçısı vəzifəsinə təyin olunmuşam. 1987-1992-ci illərdə isə "Azərsutikinti" Dövlət Konserninin Bərdə rayonundakı 32 nömrəli TQİ-nin rəisi, 1992-1996-cı illərdə "Qarabağsutikinti" Trestinin müdiri, 1996-1998-ci illərdə "Azərsutikinti" Dövlət Konserninin Tərtər rayonunda yerləşən 15 nömrəli TQİ-nin müdiri vəzifəsində çalışmışam. "Azərsutikinti" Səhmdar Cəmiyyətinin Tərtər rayonundakı "Qarabağsutikinti" törəmə müəssisəsinin müdiri vəzifəsinə təyin olunmuş və 2010-cu ilə kimi bu vəzifədə işləmişəm. 2010-cu ildə "Qarabağsutikinti" törəmə müəssisəsinin bazasında "Qarabağ E.R." MMC yaradılmış və həmin vaxtdan cəmiyyətin direktoru vəzifəsində çalışıram.

Qeyd edək ki, "Qarabağ-ER" MMC-nin kollektivi son illərdə respublikamızda çoxlu sayda infrastruktur layihələrini reallaşdırmışdır. Belə ki, Azərbaycan Respublikasının Dövlət proqramlarında nəzərdə tutulan sosial infrastrukturların yaxşılaşdırılması proqramlarında büdcə vəsaiti hesabına nəzərdə tutulan əsaslı tikinti, yenidənqurma, meliorasiya və irriqasiya layihələrinin, eləcə də Dünya Bankının, İslam İnkişaf Bankının və Azərbaycan hökumətinin ayırdığı kredit və qrant vəsaitləri hesabına bir sıra layihələrin icrası "Qarabağ-ER" MMC-nin inşaatçıları tərəfindən həyata keçirmişdir.

Bərdə şəhərində "Uşaq incəsənət məktəbi", Ağcəbədi rayonunda Qarqar çayında sahilbərkitmə işləri, Bərdə rayonunda qaçqın və məcburi köçkünlər üçün 7 mərtəbəli 42, Bakı şəhəri, Müşfiqabad qəsəbəsində qaçqın və məcburi köçkünlər üçün 5 mərtəbəli 80 mənzilli yaşayış binaları, Bərdə şəhərində sahilbərkitmə işləri və sair yüzlərlə obyekt, **"Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sifarişləri əsasında** - Ağcabədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan qaçqın və məcburi köçkünlərin təsərrüfatları su təminatının yaxşılaşdırılması məqsədi üçün beton kanal, hidrotexniki qurğu və körpülər, Goranboy rayonunun ərazisində suvarılan torpaqların su təminatının yaxşılaşdırılması məqsədi ilə Xan-Arx kanalının, hidrotexniki qurğuların, körpülərin və selötürücülərin tikinti işləri və s. obyektlər bu idarənin əməyinin bəhrəsidir. Tərtər rayonunun ərazisində Tərtər çayının sağ sahilində sel sularından mühafizə məqsədi üçün sahilbərkitmə işləri, hidrotexniki qurğular, körpülər və selötürücü qurğular, Tərtər rayonunun Evoğlu, Küçərli və Qaraqoyunlu kəndlərində əkin sahələrinin yeraltı qaynama sularından təmizlənməsi və torpaqların meliorativ yaxşılaşdırılması üçün "Qrunt sularının səviyyəsinin aşağı salınması" layihəsi üzrə işlər, Bərdə rayonunun yeraltı qaynama sularından təmizlənməsi və torpaqların meliorativ yaxşılaşdırılması məqsədi ilə "Qrunt sularının səviyyəsinin aşağı salınması" layihəsi üzrə işlər, Ağdam rayonunun Ergi massivində əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədi ilə Qarabağ kanalına baş suqəbuledici qurğunun tikintisi, Ağcabədi rayonunun Xocavənd kəndi ərazisindən keçən Qarqar çayında sel sularından mühafizə məqsədilə beton qoruyucu bənd, 24 metr aşırımında metal körpü və 1 ədəd səviyyəendirici qurğunun tikintisi, Bərdə şəhərində Heydər Əliyev adına Milli Parkın ərazisindən keçən Tərtər çayında beton sahilbərkitmə işləri, 2 ədəd səviyyəendirici qurğu, 85 m uzunluğunda müasir üslubda tikilmiş asma körpü və onlarca bu kimi işlər də bu sıradandır.

**Fürsətdən istifadə edib 5 iyun — "Su təsərrüfatı və meliorasiya işçiləri günü" münasibətilə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Ə.Əhmədzadəni və bu sahənin zəhmətkeşlərini təbrik edir, onlara uğurlar arzulayıram.**

**Vəli ALBƏNDOV,**
**"Qarabağ E.R." Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru, respublikanın Əməkdar mühəndisi, YAP üzvü.**